# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

“Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 dekabr tarixli 898 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən və bir sıra daxilolmaların uçotunun təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr

2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 oktyabr tarixli 385 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı" üzrə:

1.1. "1.2.0.0.0.0" bölməsində "Sosial ayırmalar" sözləri "Sosial və icbari tibbi sığortaya ayırmalar" sözləri ilə əvəz edilsin;

1.2. "1.2.3.4.0.0", "1.2.3.5.0.0" və "1.4.3.8.0.0" paraqrafları ləğv edilsin;

1.3. aşağıdakı məzmunda "1.2.4.0.0.0", "1.2.5.0.0.0", "1.2.6.0.0.0" və "1.2.7.0.0.0" köməkçi bölmələr əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 4 | 0 | 0 | 0 | İcbari tibbi sığorta üzrə sığorta haqları |
| 1 | 2 | 4 | 1 | 0 | 0 | İşəgötürənlər tərəfindən icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 1 | 1 | 0 | Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən işəgötürənlər tərəfindən icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 1 | 2 | 0 | Hasilatın pay bölgüsü sazişləri üzrə podratçı təşkilatlara aid edilən işəgötü-rənlərin əməyin ödənişi fonduna hesablanan icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 1 | 3 | 0 | Hasilatın pay bölgüsü sazişləri üzrə xarici və yerli subpodratçılara aid edilən işəgötürənlərin əməyin ödənişi fonduna hesablanan icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 1 | 4 | 0 | Büdcə təşkilatlarına aid edilən işəgötürənlər tərəfindən icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 1 | 5 | 0 | Dövlət adından yaradılan publik hüquqi şəxslərə aid edilən işəgötürənlər tərə-findən icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 1 | 6 | 0 | Səhmlərinin və ya paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan hüquqi şəxslərə aid edilən işəgötürənlər tərəfindən icbari tibbi sığorta üzrə sığorta haqqı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 4 | 1 | 7 | 0 | Digər işəgötürənlər tərəfindən icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 2 | 0 | 0 | Muzdla işləyənlərin əməkhaqlarından hesablanan icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 2 | 1 | 0 | Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən muzdla işləyənlərin əməkhaqlarından hesablanan icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 2 | 2 | 0 | Hasilatın pay bölgüsü sazişləri üzrə podratçı təşkilatlarda muzdla işləyənlərin əməkhaqlarından icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 2 | 3 | 0 | Hasilatın pay bölgüsü sazişləri üzrə xarici və yerli subpodratçılarda muzdla işləyənlərin əməkhaqlarından icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 2 | 4 | 0 | Büdcə təşkilatlarında muzdla işləyənlərin əməkhaqlarından hesablanan icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 2 | 5 | 0 | Dövlət adından yaradılan publik hüquqi şəxslərdə muzdla işləyənlərin əməkhaqlarından hesablanan icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 2 | 6 | 0 | Səhmlərinin və ya paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan hüquqi şəxslərdə muzdla işləyənlərin əməkhaqlarından hesablanan icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 2 | 7 | 0 | Digər işəgötürənlərdə muzdla işləyənlərin əməkhaqlarından hesablanan icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 3 | 0 | 0 | Vergi ödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar, xüsusi notariuslar, vəkillər kollegiyasının üzvləri) üzrə ödənilən icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 4 | 0 | 0 | Mülki-hüquqi müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər üzrə ödənilən icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 5 | 0 | 0 | Digər sığortaolunanlar üzrə ödənilən icbari tibbi sığorta üzrə sığorta haqqı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 4 | 6 | 0 | 0 | Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin, dizel yanacağının və maye qazın hər litrinə görə icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 6 | 1 | 0 | Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin hər litrinə görə icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 6 | 2 | 0 | Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan dizel yanacağının hər litrinə görə icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 6 | 3 | 0 | Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan maye qazın hər litrinə görə icbari tibbi sığorta üzrə sığorta haqqı |
| 1 | 2 | 4 | 7 | 0 | 0 | Vergi ödəyiciləri tərəfindən aksiz dərəcələri üzrə ödənilən icbari tibbi sığorta üzrə sığorta haqları |
| 1 | 2 | 4 | 7 | 1 | 0 | Araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likör və likör məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinə görə daxilolmalar |
| 1 | 2 | 4 | 7 | 2 | 0 | Pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq olunan aksiz dərəcəsinə görə daxilolmalar |
| 1 | 2 | 4 | 7 | 3 | 0 | Siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq olunan aksiz dərəcəsinə görə daxilolmalar |
| 1 | 2 | 4 | 7 | 4 | 0 | Energetik içkilərin hər litrinə görə tətbiq olunan aksiz dərəcəsinə görə daxilolmalar |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 4 | 8 | 0 | 0 | “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər gəlirlər |
| 1 | 2 | 5 | 0 | 0 | 0 | Sosial sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə daxilolmalar |
| 1 | 2 | 5 | 1 | 0 | 0 | Sosial sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarından daxilol-malar |
| 1 | 2 | 5 | 2 | 0 | 0 | Sosial sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar |
| 1 | 2 | 5 | 3 | 0 | 0 | Sosial sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablan-masından daxilolmalar |
| 1 | 2 | 6 | 0 | 0 | 0 | İşsizlikdən sığorta haqqında qanunve-riciliyin tələblərinin pozulmasına görə daxilolmalar |
| 1 | 2 | 6 | 1 | 0 | 0 | İşsizlikdən sığorta haqqında qanunve-riciliyin tələblərinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 2 | 6 | 2 | 0 | 0 | İşsizlikdən sığorta haqqında qanunve-riciliyin tələblərinin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar |
| 1 | 2 | 6 | 3 | 0 | 0 | İşsizlikdən sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablan-masından daxilolmalar |
| 1 | 2 | 7 | 0 | 0 | 0 | İcbari tibbi sığorta haqqında qanunve-riciliyin tələblərinin pozulmasına görə daxilolmalar |
| 1 | 2 | 7 | 1 | 0 | 0 | İcbari tibbi sığorta haqqında qanunve-riciliyin tələblərinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarından daxilolmalar |
| 1 | 2 | 7 | 2 | 0 | 0 | İcbari tibbi sığorta haqqında qanunve-riciliyin tələblərinin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar |
| 1 | 2 | 7 | 3 | 0 | 0 | İcbari tibbi sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesab-lanmasından daxilolmalar |

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə" üzrə:

2.1. birinci abzasda "sosial ayırmalar" sözləri "sosial və icbari tibbi sığortaya ayırmalar" sözləri ilə əvəz edilsin;

2.2. 1.2-ci bənd üzrə:

2.2.1. adında "Sosial ayırmalar" sözləri "Sosial və icbari tibbi sığortaya ayırmalar" sözləri ilə əvəz edilsin;

2.2.2. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Sosial və icbari tibbi sığortaya ayırmalar dövlətin həyata keçirdiyi sosial proqramlardan asılı olaraq sosial təminata, sosial ehtiyaclara, işsizlikdən sığortaya və icbari tibbi sığortaya ayırmalara bölünür.";

2.2.3. ikinci cümləyə "Sosial sığorta" sözlərindən sonra ", icbari tibbi sığorta" sözləri əlavə edilsin;

2.3. 1.2.3.3-cü yarımbənddə "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati xətalara görə tətbiq olunan inzibati cərimələrdən" sözləri "işsizlikdən sığorta haqqında qanunvericiliyin müddəalarının pozulmasına görə" sözləri ilə əvəz edilsin;

2.4. 1.2.3.4-1.2.3.8-ci yarımbəndlər ləğv edilsin;

2.5. aşağıdakı məzmunda 1.2.4-1.2.7-ci yarımbəndlər əlavə edilsin:

"**1.2.4. İcbari tibbi sığorta üzrə sığorta haqları** dedikdə, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada sığortalı tərəfindən sığortaçıya ödənilən pul məbləği, həmçinin həmin Qanunla müəyyən edilmiş digər gəlirlərdən daxilolmalar nəzərdə tutulur.

**1.2.4.1. İşəgötürənlər tərəfindən ödənilən icbari tibbi sığorta üzrə sığorta haqqı** "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş dərəcələrlə hesablanan icbari tibbi sığorta haqqıdır.

**1.2.4.2. Muzdla işləyənlərin əməkhaqlarından hesablanan icbari tibbi sığorta üzrə sığorta haqqı** işçilərin əməkhaqlarından "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş dərəcələrlə hesablanan icbari tibbi sığorta haqqıdır.

**1.2.4.3. Vergi ödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar, xüsusi notariuslar, vəkillər kollegiyasının üzvləri) üzrə ödənilən icbari tibbi sığorta üzrə sığorta haqqı** minimum aylıq əməkhaqqından "Tibbi sığorta

haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş dərəcələrlə ödənilən icbari tibbi sığorta haqqıdır.

**1.2.4.4. Mülki-hüquqi müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər üzrə ödənilən icbari tibbi sığorta üzrə sığorta haqqı** mülki hüquqi müqavilələrlə işləyənlərin gəlirlərindən "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş dərəcələrlə ödənilən icbari tibbi sığorta haqqıdır.

**1.2.4.5. Digər sığortaolunanlar üzrə ödənilən icbari tibbi sığorta üzrə sığorta haqqı** dedikdə, 1.2.4.1-1.2.4.4-cü yarımbəndlərdə nəzərdə tutulan şəxslərdən başqa sığortalı qismində özləri çıxış edən digər sığortaolunanlar tərəfindən "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş dərəcələrlə ödənilən icbari tibbi sığorta haqqıdır.

**1.2.4.6. Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin, dizel yanacağının və maye qazın hər litrinə görə icbari tibbi sığorta üzrə sığorta haqqı** dedikdə, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğlərlə ödənilən icbari tibbi sığorta haqqı nəzərdə tutulur.

**1.2.4.7. Vergi ödəyiciləri tərəfindən aksiz dərəcələri üzrə ödənilən icbari tibbi sığorta üzrə sığorta haqları** dedikdə, araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likör və likör məmulatlarına, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərə, siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinə və energetik içkilərə görə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğlərlə ödənilən icbari tibbi sığorta haqqı nəzərdə tutulur.

**1.2.4.8. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər gəlirlər** dedikdə, 1.2.4.1-1.2.4.7-ci yarımbəndlərdə nəzərdə tutulmayan icbari tibbi sığorta haqqı üzrə digər daxilolmalar nəzərdə tutulur.

**1.2.5. Sosial sığorta qanunvericiliyinin pozulmasına görə daxilolmalar** dedikdə, sosial sığorta haqqında qanunvericiliyin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarından, cərimələrdən və sosial sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanmasından daxilolmalar nəzərdə tutulur.

**1.2.5.1. Sosial sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarından daxilolmalar** dedikdə, “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tələblərinin pozulmasına görə tətbiq olunan maliyyə sanksiyalarından daxilolmalar nəzərdə tutulur.

**1.2.5.2. Sosial sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar** dedikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan inzibati xətalara görə tətbiq olunan cərimələrdən daxilolmalar nəzərdə tutulur.

**1.2.5.3. Sosial sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanmasından daxilolmalar** dedikdə, məcburi dövlət sosial sığorta haqlarının vaxtında ödənilməməsinə görə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə hesablanan əlavə faizlər nəzərdə tutulur.

**1.2.6. İşsizlikdən sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə daxilolmalar** dedikdə, işsizlikdən sığorta haqqında qanunvericiliyin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarından, cərimələrdən və işsizlikdən sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanmasından daxilolmalar nəzərdə tutulur.

**1.2.6.1. İşsizlikdən sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarından daxilolmalar** dedikdə, “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tələblərinin pozulmasına görə tətbiq olunan maliyyə sanksiyalarından daxilolmalar nəzərdə tutulur.

**1.2.6.2. İşsizlikdən sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar** dedikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan inzibati xətalara görə tətbiq olunan cərimələrdən daxilolmalar nəzərdə tutulur.

**1.2.6.3. İşsizlikdən sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanmasından daxilolmalar** dedikdə, işsizlikdən sığorta haqlarının vaxtında ödənilməməsinə görə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə hesablanan əlavə faizlər nəzərdə tutulur.

**1.2.7. İcbari tibbi sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə daxilolmalar** dedikdə, tibbi sığorta

haqqında qanunvericiliyin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarından, cərimələrdən və icbari tibbi sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanmasından daxilolmalar nəzərdə tutulur.

**1.2.7.1. İcbari tibbi sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarından daxilolmalar** dedikdə, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tələblərinin pozulmasına görə tətbiq olunan maliyyə sanksiyalarından daxilolmalar nəzərdə tutulur.

**1.2.7.2. İcbari tibbi sığorta haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar** dedikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan inzibati xətalara görə tətbiq olunan cərimələrdən daxilolmalar nəzərdə tutulur.

**1.2.7.3. İcbari tibbi sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanmasından daxilolmalar** dedikdə, tibbi sığorta haqlarının vaxtında ödənilməməsinə görə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə hesablanan əlavə faizlər nəzərdə tutulur.”;

2.6. ikinci halda 1.3.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“**1.4.3. Cərimə və sanksiyalar üzrə daxilolmalara** cinayət hüquqpozma və inzibati xətalara, maliyyə, sığorta, vergi, əmək, məşğulluq və torpaq qanunvericiliyinə uyğun olaraq tutulan cərimə və sanksiyalar aid edilir. Yol hərəkəti qaydalarının pozulmasına görə cərimələr, sanksiyalar və sair daxilolmalar bu qrupa daxildir.”.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 14 dekabr 2020-ci il

№ 494